# İdman xəbərləri

## «Qəbələ»dən böyükhesablı qələbə



Noyabrın 25-də Topaz Premyer Liqasında XIII tura start verilib. Turun ilk qarşılaşması Gəncədə keçirilib. "Qəbələ" səfər matçında "Kəpəz"lə qarşılaşıb.

"Qəbələ" ilk hücumda meydan sahiblərini məyus edib. Famussa Konenin ötürməsindən sonra qapıçı meydanı önündə qolkiperlə üz-üzə qalan Baqali Dabo 26-cı saniyədə hesabı açıb - 1:0.

"Qəbələ"nin tam üstünlüyü ilə keçən birinci hissənin sonlarında meydan sahibləri də fəallaşıb. Lakin "Qəbələ"nin üstünlüyü şəraitində keçən oyunda hesab - 6:1 olub.

**"Qəbələ"**

## Əvəzedicilərdən böyükhesablı səfər qələbəsi

Əvəzedicilərin yarışında XIII tura start verilib. Turun ilk qarşılaşması Yevlaxda keçirilib. Çempionatın lideri "Qəbələ" səfərdə Gəncə "Kəpəz"i ilə qarşılaşıb. Hesab yalnız 68-ci dəqiqədə açılıb. Rövlan Muradov meydan sahiblərini məyus edib. 4 dəqiqə sonra Ülvi İbazadə fərqi artırmağa müvəffəq olub. Qarşılaşmanın sonlarında isə Amin Seydiyev böyükhesablı qələbəni rəsmiləşdirən qola imza atıb - 3:0.

**"Qəbələ"**

## Kitabxanalar əvəzsiz xəzinədir

Kitab oxumaq insanın dünya görüşünü zənginləşdirir, onda müsbət keyfiyyətlər aşılayır. Böyük alimlər, filosoflar, ictimai xadimlər kitab haqqında yüksək fikirlər söyləmiş, onu bəşəriyyətin ən böyük kəşfi hesab etmişlər. Dünyanın ən müdrik insanları kitabı həmişə ürəkdən sevmiş, əzizləmiş, əllərinə keçən kitabları bir yerə toplayaraq göz bəbəyi kimi qorumuş, onları nəsillərdən-nəsillərə ötürmüşlər.

Təəssüf ki, bu gün kitaba münasibət bir qədər dəyişib. Kitab oxuyanların sayı azalıb.Mütaliə isə insanın düşüncəsinə, dünyagörüşünə, təfəkkürünə birbaşa təsir edən mədəniyyət nümunəsidir. Bu mədəniyyətin təbliğinin ən geniş yayılmış formaları yazıçı və şairlərin, elm və mədəniyyət xadimlərinin yubileylərinə həsr olunmuş kitab sərgilərinin təşkili, o cümlədən mühazirələr, söhbətlər, biblioqrafik icmallar, oxucu konfransları və oxucularla görüşlərdir.



Bu istiqamətdə kitabxanamızda keçirilən tədbirlər haqqında məlumatlar internet vasitəsi ilə kütləvi informasiya vasitələrinə ötürülür, təşkilinin məqsədi oxuculara izah olunur, tədbir haqqında biblioqrafik məlumatlar verilir. Sərgi və tədbirlərdə elektron məlumat bazalarından, slaytlardan, videocarxlardan, sənədli filmlərdən istifadə edilir. Eləcə də yeni kitablar haqqında oxucuları məlumatlandırmaq məqsədilə filiallarımızda "Gəlin kitab oxuyaq" başlığı altında sərgilər təşkil olunur.

Bu gün kitabxanalarımızda kitab təbliğinin həyata keçirilməsi ilə bağlı daha mütərəqqi forma və üsullardan istifadə olunur. İndi oxucularımız təkcə ənənəvi kitablardan deyil, elektron kitablardan da geniş istifadə edirlər.

Yeni nəşrlərlə zənginləşdirilən kitabxanamızın fonduna daxil olan kitabların oxucular üçün də maraqlı olacağını nəzərə alaraq onların bir qısminin siyahısını təqdim edirik:

1. Doyl Artur Konan "Seçilmiş əsərləri"
2. Dikkens Çarlz "Oliver Tvist"
3. Bernard Şou Corc "Seçilmiş əsərləri"
4. Kastaneda Karlos "Don Xuanla söhbətlər"
5. Zolya Emil "Seçilmiş əsərləri"
6. Miçel Marqaret "Küləklə sovrulanlar"
7. Azimov Ayzek "Seçilmiş əsərləri"
8. Yapon ədəbiyyatı antalogiyası
9. Latın Amerikası ədəbiyyatı antalogiyası
10. XX əsr dünya ədəbiyyatı antalogiyası
11. Türk xalqlarının ədəbiyyatı antalogiyası- 3 cilddə
12. Rable Fransua "Qarqantua və Pantaqruel
13. Oe Kendzaburo "Seçilmiş əsərləri"
14. Borxes Xorxe Luis "Seçilmiş əsərləri"
15. Rollan Romen "Seçilmiş əsərləri"

Kitabxanamızın xidmətlərindən istifadə etmək üçün hər kəs şəxsiyyətini təsdiq edən sənədi təqdim etməklə qeydiyatdan keçib, fəal oxucumuz ola bilər.

**Günel QARAYEVA,**
**rayon mərkəzləşdirilmiş kitabxanalar sisteminin işçisi.**

## Gənclərin məşğulluğunun təmin olunması mövzüsunda tədbir



Qəbələ Rayon Məşğulluq Mərkəzinin təşkilatçılığı ilə Qəbələ şəhər 1 nömrəli tam orta məktəbdə növbəti peşəyönümü tədbiri keçirilib. Valideynlərin, müəllimlərin və yuxarı sinif şagirdlərin iştirakı ilə keçirilən tədbirdə şagirdlərə peşələrin növləri, peşələrin şəxsiyyət qarşısında qoyduğu tələblər, peşə maraqları və meylləri, əmək bazarında işçi qüvvəsinə olan tələbat barədə ətraflı məlumat verilib, onlarla seçdikləri peşələr barədə müzakirələr aparılıb.

Yekunda şagirdləri maraqlandıran suallar cavablandırılıb.

**Sahib AĞAYEV,**
**məşğulluq mərkəzinin baş məsləhətçisi.**
**İlkin Vəlizadə (foto).**

## Qanvermə aksiyası keçirilib



Qəbələdə hemofiliya, talassemiya və irsi qan xəstəliklərindən əziyyət çəkən xəstələrə yardım məqsədilə qanvermə aksiyası keçirilib.

Səhiyyə Nazirliyinin və Qəbələ Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə reallaşan aksiyaya rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatlarının əməkdaşları qatılıb. Aksiyada 200 nəfərə yaxın insan donor qismində iştirak edib.

Toplanan qan hemofiliya, talassemiya və irsi qan xəstəliklərindən əziyyət çəkən insanların müalicəsinə sərf edilməsi üçün Mərkəzi Qan Bankına göndərilib.

**"Qəbələ"**
**Səhrab Umuyev (foto)**




QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə

2018-ci ilin birinci yarısı üçün abunə yazılışı davam edir

İllik abunə qiyməti 30 manat, yarımillik abunə qiyməti 15 manatdır.

Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.

Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.



«QƏBƏLƏ» qəzetinin reklam xidməti

205-19-14, 205-15-56


## İTMİŞDİR

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 iyun 1998-ci il tarixli 11 nömrəli qərarı ilə Bum qəsəbə sakini **Ebişov Adıgözəl Yaqub oğluna** verilmiş JN seriyalı 539 nömrəli (kod 40600038) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 29 sentyabr 1997-ci il tarixli 18 nömrəli qərarı ilə Mamaylı kənd sakini **Əhmədof Ramiz Muxtar oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 152 nömrəli (kod 40604038) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** və həmin torpaq sahəsinin 09 fevral 1998-ci ildə tərtib olunmuş **qaiməsi (sertifikatı)** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 may 1998-ci il tarixli 09 nömrəli qərarı ilə Mirzəbəyli kənd sakini **Ağayev Mirhəsən Əlibala oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 306 nömrəli (kod 40613028) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Bum qəsəbə sakini **Muradov Bəkir Mayıl oğluna** Şəki RQİTBŞ tərəfindən 22 iyul 1983-cü il tarixdə verilmiş «B»-«C» kateqoriyalı ABM seriyalı 243643 nömrəli **sürücülük vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Qəbələ Rayon Polis Şöbəsi rayon prokuroru **Məqsəd Orucova** həyat yoldaşı

**ŞÖLƏ XANIMIN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

Qəbələ Müalicə-Diaqnostika Mərkəzinin kollektivi rayon prokuroru **Məqsəd Orucova** həyat yoldaşı

**ŞÖLƏ XANIMIN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

---

Qəbələ Müalicə-Diaqnostika Mərkəzinin kollektivi iş yoldaşları **Aynur Həmidovaya** atası

**QNYAZ KƏRİMOVUN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

---

Emin Baratoğlu ailəsi ilə birlikdə tələbə yoldaşı

**YUSİF MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir, mərhumun əzizlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Ədalət Əliyev ailəsi ilə birlikdə rayon prokuroru **Məqsəd Orucova** həyat yoldaşı

**ŞÖLƏ XANIMIN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.


Redaktor Varis Yaqubov.

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

*Məsul katib Qüdrət Səmədov.*

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Tiraj 1900